**AZƏRBAYCAN RESPUBLİKASI**

**ALİ MƏHKƏMƏSİNİN**

**CİNAYƏT KOLLEGİYASI**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 2020-ci il üzrə fəaliyyətinə dair

# H E S A B A T

# M Ü N D Ə R İ C A T


**ALİ MƏHKƏMƏNİN CİNAYƏT KOLLEGİYASI............................................ 3**

I Cinayət Kollegiyasının icraatında olan bütün kateqoriyalardan olan işlər üzrə (cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, hərbi məhkəmələrin yurisdiksiyasına aid işlər, habelə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə) yekun məlumatlar və onların 2019-cu ilin müvafiq göstərciləri ilə müqayisəsi.................................. 3

II Cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına baxılması haqqında məlumatlar........................................................................... 13

III Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallarına baxılmasına dair məlumatlar.................................................... 36

IV Kassasiya müraciətlərinin növləri üzrə məlumat............................................ 43

V Apellyasiya instansiyası məhkəmələri üzrə kassasiya icraatının nəticələri haqqında məlumat......................................................................... 54

# ALİ MƏHKƏMƏNİN CİNAYƏT KOLLEGİYASI

***I hissə. Cinayət Kollegiyasının icraatında olan bütün kateqoriyalardan olan işlər üzrə (cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, hərbi məhkəmələrin yurisdiksiyasına aid işlər, habelə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə) yekun məlumatlar və onların 2019-cu ilin müvafiq göstərciləri ilə müqayisəsi***

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının icraatında 2020-ci ildə ümumilikdə **2212** nəfər haqqında **1921** cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, hərbi məhkəmələrin yurisdiksiyasına aid işlər, habelə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları (bundan sonra arayışın hazırki hissəsinin mətnində "iş" kimi qeyd olunacaqdır) olmuşdur.

Onlardan: **704 (31,8%)** nəfər haqqında **580 (30,2%)** iş 2019-cu ildən qalıq keçmiş, **1508 (68,2%)** nəfər haqqında **1341 (69,8%)** iş isə 2020-ci ildə daxil olmuşdur.

**İcraatda olmuş işlər üzrə məlumat**






Cinayət kollegiyasının icraatında 2019-cu ildə ümumilikdə **2957** nəfər haqqında **2601** iş olmuş, onlardan **725 (24,5%)** nəfər haqqında **713 (27,4%)** iş 2018-ci ildən qalıq keçmiş, **2232** nəfər **(75,5%)** haqqında **1888 (72,6%)** iş 2019-cu ildə daxil olmuşdur.

Hesabat ilinin və 2019-cu ilin həmin göstəriciləri müqayisə edildikdə, müəyyən olunur ki, 2020-ci ildə Cinayət kollegiyasının icraatında olmuş işlər şəxslərin sayına görə **745 (24,5%)** nəfər, işlərin sayına görə **713 (27,4%)** iş azalmış, il ərzində daxil olmuş işlər üzrə də şəxslərin sayına görə **724 (32,4%)** nəfər, işlərin sayına görə **547 (29%)** iş azalma müşahidə edilmişdir.

Əvvəlki ildən qalıq keçən işlər üzrə isə 2018-ci ildən 2019-cu ilə keçən işlərlə müqayisədə 2019-cu ildən 2020-ci ilə **21 (2,9%)** nəfər barəsində **133 (18,6%)** işin az qalıq keçdiyi müəyyən edilmişdir.

**İcraatda olmuş işlərə dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






**İllər üzrə fərq**







Cinayət Kollegiyasının icraatında olan **2212** nəfər haqqında **1921** işdən 2020-ci ildə cəmi **1410 (63,7%)** nəfər haqqında **1205 (62,7%)** işə baxılmış, **20 (0,9%)** nəfər haqqında **17 (0,9%)** iş Cinayət-Prosessual Məcəllənin 415-ci maddəsinə əsasən baxılmamış saxlanılmış, **782 (35,4%)** nəfər haqqında **699 (36,6%)** iş isə 2021-ci ilə qalıq keçmişdir.

**Baxılmış və qalıq keçmiş işlər haqqında məlumat**







Cinayət kollegiyasının icraatında 2019-cu ildə olmuş **2.957** nəfər haqqında **2.601** işdən isə həmin ildə cəmi **2.295 (77,6%)** nəfər haqqında **2.045 (78,6%)** işə baxılmış, **662 (22,4%)** nəfər haqqında **556 (21,4%)** iş isə 2020-ci ilə qalıq keçmişdir.

Baxılmış işlərə dair həmin göstəricilərin müqayisəsindən görünür ki, 2020-ci ildə **885 (38,6%)** nəfər barəsində **840 (41,1%)** işə az baxılmış, növbəti ilə qalıq keçmiş işlərin və bu işlər üzrə məhkum olunmuş şəxslərin sayında isə - əksinə (**120** nəfər və **143** iş çox ol*ma*qla) müvafiq olaraq **18,1%** və **25,7%** artım baş vermişdir.

## İşlərə baxılmasına dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi






**İllər üzrə fərq**







Hesabat ilində (2020-ci ildə) baxılmış **1410** nəfər haqqında **1205** iş üzrə qərarlardan **878 (62,3%)** nəfər haqqında **758 (62,9%)** iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən qüvvəsində saxlanılmış; **121** (**8,6%**) nəfər haqqında **99** (**8,2%**) iş üzrə qərarlar (hökmlər) ləğv olunmuş, onlardan da **109** (**7,7%**) nəfər haqqında **88** (**7,3%**) iş üzrə qərarlar (hökmlər) ləğv olunaraq işlər yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə qaytarılmış, bəraətverici və digər əsaslarla **12** (**0,9%**) nəfər haqqında **11** (**0,9%**) iş üzrə qərarlar ləğv olunaraq işlər və materiallar üzrə icraata xitam verilmiş; **143** (**10,1%**) nəfər haqqında **102** (**8,5%**) iş üzrə qərarlar dəyişdirilmiş; **2 (0,1%)** nəfər haqqında **2 (0,2%)** iş üzrə kassasiya icraatına xitam verilmiş; **56 (4%)** nəfər haqqında **56 (4,6%)** iş üzrə qərarlardan (hökmlərdən) kassasiya şikayətinin və kassasiya protestinin verilməsi müddətlərinin bərpasına dair vəsatətlər təmin olunmamış; **210** (**14,9%**) nəfər haqqında **188** (**15,6%**) iş üzrə olan kassasiya şikayətləri və kassasiya protestləri məhkumların və ya onların müdafiəçilərinin, habelə dövlət ittihamçılarının ərizələrinə əsasən geri qaytarılmışdır.

## Baxılmış işlər üzrə məlumat (2020-ci il)






Beləliklə, hesabat dövründə Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, hərbi məhkəmələrin yurisdiksiyasına aid işlər, habelə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **264** (**18,7%**) nəfər haqqında **201** (**16,7%**) qərarları (hökmləri) ləğv olunmuş və ya dəyişdirilmişdir.

Cinayət kollegiyası tərəfindən 2019-cu ildə işlərə baxılması və baxılmanın nəticələri üzərə göstəricilər isə aşağıdakı kimi olmuşdur.

Həmin (2019-cu) ildə baxılmış **2.295** nəfər haqqında **2.045** iş üzrə qərarlardan **1208 (52,6%)** nəfər haqqında **1037 (50,7%)** iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən qüvvəsində saxlanılmış; **179** (**7,8%**) nəfər haqqında **159** (**7,8%**) iş üzrə qərarlar (hökmlər) ləğv olunmuş, onlardan da **167** nəfər (**7,3%**) haqqında **147** iş (**7,2%)** üzrə qərarlar (hökmlər) ləğv olunaraq işlər yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə qaytarılmış, bəraətverici və digər əsaslarla **11** (**0,4%**) nəfər haqqında **11** (**0,5%**) iş üzrə qərarlar ləğv olunaraq işlər və materiallar üzrə icraata xitam verilmiş; **1** (**0,1%**) nəfər haqqında **1** (**0,1%**) iş üzrə qərar ləğv olunaraq yeni qərar qəbul edilmiş; **155** (**6,7%**) nəfər haqqında **144** (**7,1%**) iş üzrə qərarlar dəyişdirilmiş; **396** (**17,3%**) nəfər haqqında **390 (19%)** iş üzrə qərarlardan (hökmlərdən) kassasiya şikayətinin və kassasiya protestinin verilməsi müddətlərinin bərpasına dair vəsatətlər təmin olunmamış; **304** (**13,2%**) nəfər haqqında **262** (**12,8%)** iş üzrə kassasiya şikayətləri və kassasiya protestləri məhkumların və ya onların müdafiəçilərinin, habelə dövlət ittihamçılarının ərizələrinə əsasən geri qaytarılmışdır.

Beləliklə, 2019-cu ildə Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən baxılmış cinayət işləri, məhkəməyədək sadləşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, habelə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **334** (**14,5%**) nəfər haqqında **303** (**14,9%**) qərarları (hökmləri) ləğv olunmuş və ya dəyişdirilmişdir.

Təsvir edilən 2020-ci il üzrə məlumatların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsindən görünür ki, təhlil edilən hər bir dövr üzrə ümumiyyətlə baxılmış işlərin sayına nisbətdə faiz göstəricisi ilə götürüldükdə 2020-ci ildə qərarlar (hökmlər) dəyişdirilmədən qüvvədə saxlanıldığı işlərin sayı 2019-cu ilin həmin göstərcisindən **330** nəfər barəsində **279** iş az olmaqla müvafiq olaraq şəxslərə görə **9,7%** və işlərə görə **12,2%** artmış; qərarlar (hökmlər) ləğv edildiyi işlərin sayı **58** nəfər barəsində **60** iş az olmaqla müvafiq olaraq **0,8%** və **0,4%** artmış; onlardan qərar (hökm) ləğv edilməklə apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmiş işlərin sayı **58** nəfər barəsində **59** iş az olmaqla müvafiq olaraq **0,4%** və **0,1%** artmış, bəraətverici və yaxud digər əsaslarla qərarın (hökmün) ləğv edildiyi və iş üzrə icraata xitam verildiyi işlərin sayı **1** nəfər barəsində az, işlərə görə barabər olmaqla müvafiq olaraq **0,5%** və **0,4 %** artmış; qərarlar (hökmlər) dəyişdirildiyi işlərin sayı **12** nəfər barəsində **42** iş az olmaqla müvafiq olaraq **3,4%** və **1,4%** artmış, prosessual müddətin bərpasına dair vəsatətlər üzrə də göstəricilər 2020-ci ildə **340** nəfər barəsində **334** iş az olmaqla baxılıb rədd edilmiş vəsatətlər üzrə müvafiq olaraq **13,3%** və **14,4%** azalma müşahidə edilmişdir.

**Ləğv edilmiş və dəyişdirilmiş qərarlara dair məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






## İllər üzrə fərq







Ləğv edilmiş və dəyişdirilmiş qərarların (hökmlərin) ümumi sayına dair 2020-ci il üzrə məlumatı 2019-cu ildə ləğv edilmiş və dəyişdirilmiş qərarların (hökmlərin) ümumi sayına dair məlumatla müqayisə etdikdə, hesabat ilində belə qərarlar üzrə məhkumların sayının **70** nəfər, işlərinin sayının **102** iş az olduğu, faizlə isə (hər il üzrə baxımış işlərə nisbəti əsas götürülməklə) şəxslərə görə **4,2%** və işlərə görə **1,8%** artdığı müəyyən olunmuşdur.

***II hissə. Cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına baxılması haqqında məlumatlar.***

Cinayət Kollegiyasının icraatında 2020-ci ildə **1831** nəfər haqqında **1590** cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları (bundan sonra arayışın hazırki hisssəsinin mətnində "iş" kimi qeyd ediləcəkdir) olmuşdur. Bu işlərdən **589 (32,2%)** nəfər haqqında **483 (30,4%)** iş 2019-cu ildən qalıq keçmiş, **1242 (67,8%)** nəfər haqqında **1107 (69,6%)** iş 2020-ci ilin yanvar-dekabr aylarında daxil olmuşdur.

**İcraatda olmuş işlər üzrə məlumat**






Müqayisə aparılan 2019-cu ildə isə Cinayət kollegiyasının icraatında **2.433** nəfər haqqında **2.077** cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları olmuşdur. Bu işlərdən **536 (22,0%)** nəfər haqqında **524 (25,2%)** iş 2018-ci ildən qalıq keçmiş, **1897 (78,0%)** nəfər haqqında **1.553 (74,8%)** iş 2019-cu ilin yanvar-dekabr aylarında daxil olmuşdur.

Bu məsələlər üzrə 2020-ci ilin məlumatlarının 2019-cu ilin məlumatları ilə müqayisəsindən görünür ki, 2020-ci ildə Cinayət kollegiyasının icraatında olmuş işlər şəxslərin sayına görə **602 (24,7%)** nəfər, işlərin sayına görə **487 (23,4%)** iş azalmış, il ərzində daxil olmuş işlər üzrə də şəxslərin sayına görə **655 (34,5%)** nəfər, işlərin sayına görə **446 (28,7%)** iş azalma müşahidə edilmişdir.

Əvvəlki ildən qalıq keçən işlər üzrə 2018-ci ildən 2019-cu ilə keçən işlərlə müqayisədə 2019-cu ildən 2020-ci ilə **53 (9,9 %)** nəfər barəsində çox, işlərin sayına görə isə **41 (7,8%)** işin az qalıq keçdiyi müəyyən edilmişdir.

**İcraatda olmuş işlərə dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






**İllər üzrə fərq**







Cinayət kollegiyasının icraatında olan **1831** nəfər haqqında **1590** işdən 2020-ci ildə **1161 (63,4%)** nəfər haqqında **992 (62,4%)** işə baxılmış, **15 (0,8%)** nəfər haqqında **12 (0,7%)** iş Cinayət-Prosessual Məcəllənin 415-ci maddəsinə əsasən baxılmamış saxlanılmış, **655 (35,8%)** nəfər haqqında **586 (36,9%)** iş isə 2021-ci ilə qalıq keçmişdir.

**Baxılmış və qalıq keçmiş işlər haqqında məlumat**







Müqayisə aparılan 2019-cu ildə Cinayət kollegiyasının icraatında olan **2.433** nəfər haqqında **2.077** işdən **1.844 (75,8%)** nəfər haqqında **1.594 (74,8%)** işə baxılmış, **589 (24,2%)** nəfər haqqında **483 (25,2%)** iş isə 2020-ci ilə qalıq keçmişdir.

Baxılmış işlərə dair həmin göstəricilərin müqayisəsindən görünür ki, 2020-ci ildə **683 (37%)** nəfər barəsində **602 (37,8%)** işə az baxılmış, növbəti ilə qalıq keçmiş işlərin və bu işlər üzrə məhkum olunmuş şəxslərin sayında isə - əksinə (**66** nəfər və **103** iş çox olmaqla) müvafiq olaraq **11,2%** və **21,3%** artım baş vermişdir.

**İşlərə baxılmasına dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






**İllər üzrə fərq**







Kollegiya tərəfindən 2020-ci ildə baxılmış **1161** nəfər haqqında **992** iş üzrə qərarlardan (hökmlərdən) **757 (65,2%)** nəfər haqqında **653 (65,8%)** iş üzrə olan apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış; **107 (9,2%)** nəfər haqqında **90 (9,1%)** iş üzrə qərarlar (hökmlər) ləğv olunmuş, onlardan da **97 (8,4%)** nəfər haqqında **90 (9,1%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, işlər yeni apellyasiya baxışına təyin edilmiş, bəraətverici və digər əsaslarla **10 (0,8%)** nəfər haqqında **9 (0,9%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, cinayət işləri üzrə icraata xitam verilmiş; **104 (9%)** nəfər haqqında **75 (7,6%)** iş üzrə qərarlar (hökmlər) dəyişdirilmiş; **2 (0,2%)** nəfər haqqında **2 (0,2%)** iş üzrə kassasiya icraatına xitam verilmiş; **19 (1,6%)** nəfər haqqında **19 (1,9%)** iş üzrə qərardan (hökmdən) kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsinə dair vəsatətlər təmin edilməmiş; **172 (14,8%)** nəfər haqqında **153 (15,4%)** iş üzrə kassasiya şikayətləri və kassasiya protestləri, məhkumların və onların müdafiəçilərinin, dövlət ittihamçılarının ərizələrinə əsasən geri qaytarılmışdır.

Beləliklə, hesabat dövründə Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş materiallar və xüsusi ittiham qaydasında şikayətlərə dair işlər üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **211 (18,2%)** nəfər haqqında **165 (16,7%)** iş üzrə qərarları (hökmləri) ləğv olunmuş və ya dəyişdirilmişdir.

## Baxılmış işlər üzrə məlumat (2020-ci il)






Müqayisə edilən 2019-ci ildə kollegiya tərəfindən baxılmış **1.844** nəfər haqqında **1.594** iş üzrə qərarlardan (hökmlərdən) **1.077 (58,4%)** nəfər haqqında **906 (56,8%)** iş üzrə olan apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış; **171 (9,3%)** nəfər haqqında **151 (9,5%)** iş üzrə qərarlar (hökmlər) ləğv olunmuş, onlardan da **160 (8,7%)** nəfər haqqında **140 (8,8%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, işlər yeni apellyasiya baxışına təyin edilmiş, bəraətverici və digər əsaslarla **11 (0,6%)** nəfər haqqında **11 (0,7%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, cinayət işləri üzrə icraata xitam verilmiş; **141 (7,6%)** nəfər haqqında **130** iş **(8,1%)** üzrə olan qərarlar (hökmlər) dəyişdirilmiş; **1 (0,1%)** nəfər haqqında **1 (0,1%)** iş üzrə kassasiya icraatına xitam verilmiş; **127 (6,9%)** nəfər haqqında **121 (7,6%)** iş üzrə qərardan (hökmdən) kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsinə dair vəsatətlər təmin edilməmiş; **44 (2,4%)** nəfər haqqında **44 (2,8%)** iş üzrə kassasiya şikayətləri baxılmamış saxlanılmış; **283 (15,3%)** nəfər haqqında **241 (15,1%)** iş üzrə kassasiya şikayətləri və kassasiya protestləri məhkumların və onların müdafiəçilərinin, dövlət ittihamcılarının ərizələrinə əsasən geri qaytarılmışdır.

Beləliklə, 2019-cu ildə Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş materiallar və xüsusi ittiham qaydasında şikayətlərə dair işlər üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **312 (17,0%)** nəfər haqqında **281 (17,7%)** iş üzrə qərarları (hökmləri) ləğv olunmuş və ya dəyişdirilmişdir.

Təsvir edilən 2020-ci il üzrə məlumatların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsindən görünür ki, təhlil edilən hər bir dövr üzrə baxılmış işlərin sayına nisbətdə faiz göstəricəsi ilə götürüldükdə 2020-ci ildə qərarlar (hökmlər) dəyişdirilmədən qüvvədə saxlanıldığı işlərin sayı 2019-cu ilin həmin göstərcisindən **320** nəfər barəsində **253** iş az olmaqla müvafiq olaraq şəxslə görə **6,8%** və işlərə görə **9,0%** artmış; qərarlar (hökmlər) ləğv edildiyi işlərin sayı **64** nəfər barəsində **61** iş az olmaqla müvafiq olaraq **0,1%** və **0,4%** azalmış; onlardan qərar (hökm) ləğv edilməklə apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmiş işlərin sayı **63** nəfər barəsində **50** iş az olmaqla müvafiq olaraq **0,3%** artmış və **0,3%** azalmış, bəraətverici və yaxud digər əsaslarla qərarın (hökmün) ləğv edildiyi və iş üzrə icraata xitam verildiyi işlərin sayı **1** nəfər barəsində **2** iş az olmaqla müvafiq olaraq **0,2%** və **0,2%** artmış; qərarlar (hökmlər) dəyişdirildiyi işlərin sayı **37** nəfər barəsində **55** iş az olmaqla müvafiq olaraq **1,4%** artmış və **0,5%** azalmış, prosessual müddətin bərpasına dair vəsatətlər üzrə də göstəricilər 2020-ci ildə **108** nəfər barəsində **102** iş az olmaqla baxılıb rədd edilmiş vəsatətlər üzrə müvafiq olaraq **5,3%** və **5,7%** azalma müşahidə edilmişdir.

Ləğv edilmiş və dəyişdirilmiş qərarların (hökmlərin) ümumi sayına dair 2020-ci il üzrə məlumatı 2019-cu ildə ləğv edilmiş və dəyişdirilmiş qərarların (hökmlərin) ümumi sayına dair məlumatla müqayisə etdikdə, hesabat ilində belə qərarlar üzrə məhkumların sayının **101** nəfər, işlərinin sayının **116** iş az olduğu, faizlə isə (hər il üzrə baxımış işlərə nisbəti əsas götürülməklə) şəxslərə görə **1,2%** artdığı və işlərə görə **1,0%** azaldığı müəyyən olunmuşdur.

**Ləğv edilmiş və dəyişdirilmiş qərarlara dair məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






**İllər üzrə fərq**







Cinayət kollegiyasında 2020-ci ildə 2 cinayət işi üzrə 2 xüsusi qərar qəbul edilmişdir.

Həmin xüsusi qərarlar Şəki Apellyasiya Məhkəməsinin hakimləri Hüseynov Elçin Şirin oğlu, Mahmudov Ayaz Akif oğlu və Məlikov Vəzirxan İsgəndər oğlu barəsində, habelə Azərbacan Respublikası Ədliyyə Nazirliyinin Ekspertiza Mərkəzinin ekspertləri barəsində çıxarılmışır.

Müqayisə edilən 2019-cu ildə isə 3 iş üzrə 3 xüsusi qərar qəbul edilmişdir.

### *II – I. Hərbi Məhkəmələrin yurisdiksiyasına aid işlər*

Cinayət Kollegiyasının icraatında 2020-ci ildə hərbi məhkəmələrin yurisdiksiyasına aid **135** nəfər haqqında **85** cinayət işi olmuşdur. İcraatda olmuş işlərdən **42 (31,1%)** nəfər haqqında **24 (28,2%)** iş 2019-cu ildən qalıq keçmiş, **93 (68,9%)** nəfər haqqında **61 (71,8%)** iş 2020-ci ilin yanvar-dekabr aylarında daxil olmuşdur.

Həmin işlər Cinayət kollegiyasının icraatında olmuş bütün kateqoriyadan olan işlərin (materialların) ümumi həcminə (**2212** nəfər barəsinə **1921** işə) nisbətdə nəfərlə götürüldükdə **6,1%**-ni, işlə götürüldükdə **4,4%**-ni təşkil etmişdir.

**İcraatda olmuş işlər üzrə məlumat**






Müqayisə aparılan 2019-cu ildə isə həmin dövrdə fəaliyyət göstərən Hərbi kollegiyanın icraatında **182** nəfər haqqında **115** cinayət işi olmuşdur. Bu işlərdən **48 (26,4%)** nəfər haqqında **30 (26%)** iş 2018-ci ildən qalıq keçmiş, **134 (73,6%)** nəfər haqqında **85 (74%)** iş 2019-cu ilin yanvar-dekabr aylarında daxil olmuşdur.

Bu məsələlər üzrə 2020-ci ilin məlumatlarının 2019-cu ilin məlumatları ilə müqayisəsindən görünür ki, 2020-ci ildə Cinayət kollegiyasının icraatında olmuş işlər şəxslərin sayına görə **47 (25,8%)** nəfər, işlərin sayına görə **30 (26%)** iş azalmış, il ərzində daxil olmuş işlər üzrə də şəxslərin sayına görə **41 (30,6%)**, işlərin sayına görə **24 (28,2%)** iş azalma müşahidə edilmişdir.

Əvvəlki ildən qalıq keçən işlər üzrə isə 2018-ci ildən 2019-cu ilə keçən işlərlə müqayisədə 2019-cu ildən 2020-ci ilə **6 (12,5%)** nəfər barəsində **6 (20%)** işin az qalıq keçdiyi müəyyən edilmişdir.

**İcraatda olmuş işlərə dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






**İllər üzrə fərq**







Cinayət kollegiyasının icraatında olan hərbi məhkəmələrin yurisdiksiyasına aid **135** nəfər haqqında **85** işdən 2020-ci ildə **100 (74%)** nəfər haqqında **64 (75,3%)** işə baxılmış, **35 (26%)** nəfər haqqında **21 (24,7%)** iş isə 2021-ci ilə qalıq keçmişdir.

**Baxılmış və qalıq keçmiş işlər haqqında məlumat**







Müqayisə aparılan 2019-cu ildə Hərbi kollegiyanın icraatında olan **182** nəfər haqqında **115** işdən **140 (77%)** nəfər haqqında **91 (79,1%)** işə baxılmış, **42 (23%)** nəfər haqqında **24 (20,9%)** iş isə 2020-ci ilə qalıq keçmişdir.

Baxılmış işlərə dair həmin göstəricilərin müqayisəsindən görünür ki, 2020-ci ildə **40 (28,6%)** nəfər barəsində **6 (6,6%)** işə az baxılmış, növbəti ilə qalıq keçmiş işlərin və bu işlər üzrə məhkum olunmuş şəxslərin sayında da (**7** nəfər və **3** iş az olmaqla) müvafiq olaraq **16,7%** və **12,5%** azalma baş vermişdir.

**İşlərə baxılmasına dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**






**İllər üzrə fərq**






Kollegiya tərəfindən 2020-ci ildə baxılmış hərbi məhkəmələrin yurisdiksiyasına aid **100** nəfər haqqında **64** işdən **46 (46%)** nəfər haqqında **30 (46,9%)** iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış; **11 (11%)** nəfər haqqında **6 (9,4%)** iş üzrə qərarlar (hökmlər) ləğv olunmuş, o cümlədən **9 (9%)** nəfər haqqında **4 (6,3%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, işlər yeni apellyasiya baxışına təyin edilmiş, bəraətverici və digər əsaslarla **2 (2%)** nəfər haqqında **2 (3,1%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, cinayət işləri üzrə icraata xitam verilmiş; **30 (30%)** nəfər haqqında **18 (28,1%)** iş üzrə qərarlar (hökmlər) dəyişdirilmiş; **13 (13%)** nəfər haqqında **10 (15,6%)** iş üzrə kassasiya şikayətləri məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır.

Beləliklə, hesabat dövründə Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən baxılmış hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **41 (41%)** nəfər haqqında **24 (37,5%)** iş üzrə qərarları (hökmləri) ləğv olunmuş və ya dəyişdirilmişdir.

**Baxılmış işlər üzrə məlumat (2020-ci il)**






Müqayisə edilən 2019-ci ildə Hərbi kollegiya tərəfindən baxılmış **140** nəfər haqqında **91** iş üzrə qərarlardan (hökmlərdən) **81 (57,9%)** nəfər haqqında **52 (57,2%)** iş üzrə olan apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış; **13 (9,3%)** nəfər haqqında **7 (7,7%)** iş üzrə qərarlar (hökmlər) ləğv olunmaqla işlər yeni apellyasiya baxışına təyin edilmiş; **13 (9,3%)** nəfər haqqında **11(12%)** iş üzrə olan qərarlar (hökmlər) dəyişdirilmiş; **4 (2,9%)** nəfər haqqında **4 (4,4%)** iş üzrə qərardan (hökmdən) kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsinə dair vəsatətlər təmin edilməmiş; **29 (20,6%)** nəfər haqqında **17 (18,7%)** iş üzrə kassasiya şikayətləri və kassasiya protestləri məhkumların və onların müdafiəçilərinin, dövlət ittihamcılarının ərizələrinə əsasən geri qaytarılmışdır.

Beləliklə, 2019-cu ildə Ali Məhkəmənin Hərbi Kollegiyası tərəfindən baxılmış cinayət işləri üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **26 (18,6%)** nəfər haqqında **18 (19,7%)** iş üzrə qərarları (hökmləri) ləğv olunmuş və ya dəyişdirilmişdir.

Təsvir edilən 2020-ci il üzrə hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri üzrə məlumatların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsindən görünür ki, təhlil edilən hər bir dövr üzrə baxılmış işlərin sayına nisbətdə faiz göstəricəsi ilə götürüldükdə 2020-ci ildə qərarlar (hökmlər) dəyişdirilmədən qüvvədə saxlanıldığı işlərin sayı 2019-cu ilin həmin göstərcisindən **35** nəfər barəsində **22** iş az olmaqla müvafiq olaraq şəxslərə görə **11,9%** və işlərə görə **10,3%** azalmış; qərarlar (hökmlər) ləğv edildiyi işlərin sayı **2** nəfər barəsində **1** iş az olmaqla müvafiq olaraq **1,7%** və **1,7%** artmış; o cümlədən qərar (hökm) ləğv edilməklə apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmiş işlərin sayı **4** nəfər barəsində **3** iş az olmaqla müvafiq olaraq **0,3%** və **1,4%** azalmış, bəraətverici və yaxud digər əsaslarla qərarın (hökmün) ləğv edildiyi və iş üzrə icraata xitam verildiyi işlərin sayı **2** nəfər barəsində **2** iş çox olmaqla müvafiq olaraq **2%** və **3,1%** artmış; qərarlar (hökmlər) dəyişdirildiyi işlərin sayı **17** nəfər barəsində **7** iş çox olmaqla müvafiq olaraq **20,7%** və **16,1%** artmış, prosessual müddətin bərpasına dair vəsatətlər üzrə də göstəricilər 2020-ci ildə **4** nəfər barəsində **4** iş az olmaqla baxılıb rədd edilmiş vəsatətlər üzrə müvafiq olaraq **2,9%** və **4,4%** azalma müşahidə edilmişdir.

Hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri üzrə ləğv edilmiş və dəyişdirilmiş qərarların (hökmlərin) ümumi sayına dair 2020-ci il üzrə məlumatı 2019-cu ildə ləğv edilmiş və dəyişdirilmiş qərarların (hökmlərin) ümumi sayına dair məlumatla müqayisə etdikdə, hesabat ilində belə qərarlar üzrə məhkumların sayının **15** nəfər, işlərinin sayının **6** iş çox olduğu, faizlə isə şəxslərə görə **22,4%** və işlərə görə **17,8%** artdığı müəyyən olunmuşdur.

## Ləğv edilmiş və dəyişdirilmiş qərarlara dair məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi






## İllər üzrə fərq






## II-II. Cinayətlərin növlərinə görə baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları haqqında məlumat

Cinayət kollegiyası tərəfindən 2020-ci ildə baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına, habelə hərbi məhkəmələrin yursidiksiyasına aid işlərə dair məlumatlar həmin işləri məhkumların təqsirli bilindikləri cinayətlərin Cinayət Məcəlləsinin hansı fəsilində yerləşməsinə, yəni qəsd edilən obyektə görə qruplaşdırdıqda, aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur.

| Sətrin N-si | Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı) | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmişdir (2 və 3, 5-9 sütunlar) | Hökmün ləğv edilməsinin əsasları | | | | | Cəmi dəyişdirilmişdir | O cümlədən: (dəyişdirilməsinin əsasları) | | | Kassasiya icraatına xitam verilmişdir | Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir | Cinayət işi geri qaytarılıb | Yekun sayı (1, 4, 10,14, 15 və 16-ci sütunlar) | Xüsusi qərar çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yenidən baxılması üçün göndərilmişdir | İcraatına xitam verilmiş işlər | | Cəzanın yüngüllüyünə görə | Düzgün bəraət və ya xitam olunmadığına görə | Cinayət tərkibi cinayət əməli və ittiham sübuta yetirilmədiyindən | Cinayət qanunu normasının düzgün tətbiq edilməməsi və | Digər əsaslar | | Cəzanın aşağı endirilməsi | Cinayəti tövsif etməklə cəzanı aşağı endirilməsi | Digər əsaslar | | | | | |
| | A | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 1 | Sülh və insanlıq əleyhinə cinayətlər | Maddə 100.-113. | | | | | | | | | | | | | | | | | | |
| 2 | Müharibə cinayətləri | Maddə 114.-119. | | | | | | | | | | | | | | | | | | |
| 3 | Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | Maddə 120.-143. | 107 | 13 | 1 | 14 | | | | | 14 | 16 | 6 | | 10 | 0 | 6 | 36 | 179 | |
| 4 | Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | Maddə 144.-148. | 40 | 1 | 0 | 1 | | | | | 1 | 1 | | | 1 | 0 | 1 | 3 | 46 | |
| 5 | Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər | Maddə 149.-153. | 21 | 3 | 0 | 3 | | | | | 3 | 1 | | | 1 | 0 | 0 | 6 | 31 | |
| 6 | İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə | Maddə 154.-169. | 2 | 0 | 0 | 0 | | | | | | 0 | | | | 0 | 0 | 0 | 2 | |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | olan cinayətlər | | | | | | | | | | | | | | | | | | | |
| 7 | Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər | Maddə 170.-176. | 4 | 0 | 0 | 0 | | | | | | 0 | | | | 0 | 0 | 2 | 6 | |
| 8 | Mülkiyyət əleyhinə olan cinayətlər | Maddə 177.-189. | 256 | 51 | 1 | 52 | | | | | 52 | 16 | 6 | | 10 | 1 | 4 | 52 | 381 | 1 |
| 9 | İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | Maddə 190.-213. | 75 | 11 | 4 | 15 | | | | | 15 | 19 | 9 | | 10 | 0 | 4 | 27 | 140 | 1 |
| 10 | İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | Maddə 214.-233. | 54 | 3 | 2 | 5 | | | | | 5 | 22 | 10 | | 12 | 0 | 0 | 6 | 87 | |
| 11 | Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | Maddə 234.-241. | 81 | 6 | 0 | 6 | | | | | 6 | 1 | | | 1 | 0 | 2 | 15 | 105 | |
| 12 | İctimai mənəviyyat əleyhinə cinayətlər | Maddə 242.-246. | 1 | 0 | 0 | 0 | | | | | 0 | 3 | | | 3 | 0 | 0 | 0 | 4 | |
| 13 | Ekoloji cinayətlər | Maddə 247.-261. | 1 | 2 | 0 | 2 | | | | | 2 | 0 | | | | 0 | 0 | 0 | 3 | |
| 14 | Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | Maddə 262.-270. | 55 | 3 | 1 | 4 | | | | | 4 | 5 | | | 5 | 0 | 2 | 15 | 81 | |
| 15 | Kompüter informasiyası sahəsində cinayətlər | Maddə 271.-273. | 0 | 0 | 0 | 0 | | | | | 0 | 0 | | | | 0 | 0 | 0 | 0 | |
| 16 | Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | Maddə 274.-285. | 2 | 0 | 0 | 0 | | | | | 0 | 2 | | | 2 | 0 | 0 | 1 | 5 | |
| 17 | Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | Maddə 286.-307. | 22 | 1 | 0 | 1 | | | | | 1 | 4 | | | 4 | 0 | 0 | 1 | 28 | |
| 18 | Dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər | Maddə 308.-314. | 29 | 2 | 1 | 3 | | | | | 3 | 6 | 3 | | 3 | 1 | 0 | 7 | 46 | |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 19 | İdarəetmə qaydası əleyhinə olan cinayətlər | Maddə 315.-326. | 6 | 1 | 0 | 1 | | | | | 1 | 8 | 4 | | 4 | 0 | 0 | 1 | 16 | |
| 20 | Hərbi xidmət əleyhinə olan cinayətlər | Maddə 327-353 | 1 | 0 | 0 | 0 | | | | | 0 | 0 | | | | 0 | 0 | 0 | 1 | |
| **21** | **Sair cinayətlər** | | | | | | | | | | | | | | | | | | | |
| **22** | **Yekunu** | | **757** | **97** | **10** | **107** | | | | | **107** | **10<br>4** | **38** | | **66** | **2** | **19** | **17<br>2** | **116<br>1** | **2** |

Cədvəldən göründüyü kimi, Cinayət kollegiyası tərəfindən 2020-ci ildə baxılmış işlər sırasında mülkiyyət əleyhinə olan cinayətlər (**256** nəfər məhkum olmaqla) üstünlük təşkil edir. Saylarına görə ikinci, üçüncü və dördüncü sırada isə müvafiq olaraq **107** nəfər məhkum edilmiş şəxs olmaqla həyat və sağlamlıq əleyhinə cinayətlər, 81 nəfər məhkum edilmiş şəxs olmaqla narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər, habelə **75** nəfər məhkum edilmiş şəxs olmaqla iqtisadi fəaliyyət sahəsində olan cinayətlər yerləşmişlər.

Cinayət kollegiyası tərəfindən ləğv edilmiş və yaxud dəyişdirilmiş qərarlar sırasında isə (müvafiq olaraq 52 nəfər və 16 nəfər olmaqla) mülkiyyət əleyhinə olan cinayətlərə görə məhkum edilmiş şəxslər barəsində olan qərarlar çoxluq təşkil edir.

Müqayisə edilən 2019-cu ildə də Cinayət kollegiyasında baxılmış işlər içərisində sayına görə məhz yuxarıda qeyd olunan (2020-ci ildə baxılmış işlər işərsində daha çox təsadüf edilən) cinayətlər üstünlük təşkil etmişdir.

Belə ki, 2019-cu ildə 654 nəfər mülkiyyət əleyhinə olan cinayətlərə görə, 333 nəfər həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə, 177 nəfər iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə, 161 nəfər narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə məhkum edilmiş şəxslər olmuşdur.

### ***III hissə. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallarına baxılmasına dair məlumatlar***

2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının icraatında **246** nəfər haqqında **246** hökmün icrası qaydasında icraat materialı olmuşdur. Onlardan: **73 (29,7%)** nəfər haqqında **73 (29,7%)** material 2019-cu ildən qalıq keçmiş, **173 (70,3%)** nəfər haqqında **173 (70,3%)** material 2020-ci ildə daxil olmuşdur.

**İcraatda olmuş materiallar üzrə məlumat**




Müqayisə aparılan 2019-cu ildə isə Cinayət kollegiyasının icraatında **524** nəfər haqqında **524** hökmün icrası qaydasında icraat materialı olmuşdur. Onlardan: **189 (36%)** nəfər haqqında **189 (36%)** material 2018-ci ildən qalıq keçmiş, **335 (64%)** nəfər haqqında **335 (64%)** material 2020-ci ildə daxil olmuşdur.

Bu məsələlər üzrə 2020-ci ilin məlumatlarının 2019-cu ilin məlumatları ilə müqayisəsindən görünür ki, 2020-ci ildə Cinayət kollegiyasının icraatında olmuş materiallar şəxslərin sayına görə **278 (53%)** nəfər, materialların sayına görə **278 (53%)** azalmış, il ərzində daxil olmuş materiallar üzrə də şəxslərin sayına görə **162 (48,4%)** nəfər, materialların sayına görə **162 (48,4%)** iş azalma müşahidə edilmişdir.

Əvvəlki ildən qalıq keçən materiallar üzrə isə 2018-ci ildən 2019-cu ilə keçən materiallarla müqayisədə 2019-cu ildən 2020-ci ilə **116 (61,4%)** nəfər barəsində **116 (61,4%)** materialın az qalıq keçdiyi müəyyən edilmişdir.

### İcraatda olmuş materiallara dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi




### İllər üzrə fərq




Qeyd olunan **246** nəfər haqqında **246** materialdan **149 (60,6%)** nəfər haqqında **149 (60,6%)** materiala baxılmış, **5 (2%)** nəfər haqqında **5 (2%)** material üzrə kassasiya şikayətləri Cinayət-Prosessual Məcəllənin 415-ci maddəsinə əsasən baxılmamış saxlanılmış; **92 (37,4%)** nəfər haqqında **92 (37,4%)** material 2021-ci ilin yanvar ayına qalıq keçmişdır.

**Baxılmış və qalıq keçmiş materiallar haqqında məlumat**




Müqayisə edilən 2019-cu ildə isə icraatda olmuş **524** nəfər haqqında **524** materialdan **451 (86,0%)** nəfər haqqında **451 (86,0%)** materiala baxılmış, **73 (14,0%)** nəfər haqqında **73 (14,0%)** material 2020-ci ilin yanvar ayına qalıq keçmişdır.

Baxılmış materiallara dair 2019 və 2020-ci illərin göstəricilərinin müqayisəsindən görünür ki, 2020-ci ildə **302 (67%)** nəfər barəsində **302 (67%)** materiala az baxılmış, növbəti ilə qalıq keçmiş materialların və bu materiallar üzrə məhkumların sayında isə - əksinə (**19** nəfər barəsində **19** material çox olmaqla) **26,0%** artım baş vermişdir.

## Materiallara baxılmasına dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi




## İllər üzrə fərq



Hesabat ilində (2020-ci ildə) baxılmış **149** nəfər barəsində **149** materialdan materiallardan:

**- 75 (50,4%)** nəfər barəsində **75 (50,4%)** material üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmışdır.

**- 3 (2%)** nəfər barəsində **3 (2%)** material üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları ləğv edilməklə işlər yeni apelyasiya baxışına qaytarılmış;

**- 9 (6%)** nəfər barəsində **9 (6%)** material üzrə apellyasiya instansiyası məhkəməsinin qərarları dəyişdirilmiş;

**- 25 (16,8%)** nəfər haqqında **25 (16,8%)** material üzrə kassasiya şikayətləri geri götürülmiş;

- **37 (24,8%)** nəfər barəsində **37 (24,8%)** material üzrə kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddət bərpa edilməmişdir.

Beləliklə, 2020-ci ildə baxılmış materiallar üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **12 (8,0%)** nəfər haqqında **12 (8,0%)** material üzrə qərarları ləğv olunmuş və ya dəyişdirilmişdir.

**Baxılmış materiallar üzrə məlumat (2020-ci il)**



Müqayisə edilən 2019-cu ildə isə baxılmış **451** materiallardan:

**- 131 (29,0%)** nəfər barəsində **131 (29,0%)** material üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmışdır.

**- 8 (1,8%)** nəfər barəsində **8 (1,8%)** material üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları ləğv edilməklə işlər yeni apelyasiya baxışına qaytarılmış;

**- 14 (3,1%)** nəfər barəsində **14 (3,1%)** material üzrə apellyasiya instansiyası məhkəməsinin qərarları dəyişdirilmiş;

**- 29 (6,4%)** nəfər haqqında **29 (6,4%)** material üzrə kassasiya şikayətləri geri götürülmiş və baxılmamış saxlanılmış;

**- 269 (59,7%)** nəfər barəsində **269 (59,7%)** material üzrə kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddət bərpa edilməmişdır.

Beləliklə, 2019-cu ildə baxılmış materiallar üzrə apellyasiya instansiyası məhkəmələrinin ümumilikdə **22 (4,9%)** nəfər haqqında **22 (4,9%)** material üzrə qərarları ləğv olunmuş və ya dəyişdirilmişdir.

Təsvir edilən 2020-ci il üzrə məlumatların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsindən görünür ki, təhlil edilən hər bir dövr üzrə baxılmış işlərin sayına nisbəti əsas götürüldükdə 2020-ci ildə qərarlar dəyişdirilmədən qüvvədə saxlanıldığı materialların sayı 2019-cu ilin həmin göstərcisindən **56** nəfər barəsində **56** material az olmaqla **21,4%** artmış; qərar ləğv edilməklə apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmiş materialların sayı **5** nəfər barəsində **5** material az olmaqla **0,2%** artmış, qərarlar dəyişdirildiyi materialların sayı **5** nəfər barəsində **5** material az olmaqla **2,9%** artmış, prosessual müddətin bərpasına dair vəsatətlər üzrə də 2020-ci ildə **232** nəfər barəsində **232** material az olmaqla baxılıb rədd edilmiş vəsatətlər üzrə **34,9%** azalma müşahidə edilmişdir.

Ləğv edilmiş və dəyişdirilmiş qərarların ümumi sayına dair 2020-ci il üzrə məlumatı 2019-cu ildə ləğv edilmiş və dəyişdirilmiş qərarların ümumi sayına dair məlumatla müqayisə etdikdə, hesabat ilində **10** nəfər barəsində **10** materialın az olduğu, faizlə isə (hər bir il üzrə baxılmış materialların ümumi sayına nisbəti əsas götürüldükdə) **3,1%** artımın olduğu müəyyən edilir.

## Ləğv edilmiş və dəyişdirilmiş qərarlara dair məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi




## İllər üzrə fərq



### *IV hissə. Kassasiya müraciətlərinin növləri üzrə məlumat*

### Ümumi məlumat

Cinayət kollegiyasının 2020-ci ildə icraatında olmuş **2.212** nəfər haqqında **1.921** işdən **245 (11%)** nəfər haqqında **166 (8,6%)** iş kassasiya protesti, **1 (0,04%)** nəfər haqqında **1 (0,05%)** iş təqdimat, qalan **1.966 (88,9%)** nəfər haqqında **1.754 (91,3%)** iş isə kassasiya şikayəti ilə icraata daxil olmuş işlər kimi qeydə alınmışdır.

Müqayisə edilən 2019-cu ilin müvafiq dövründə isə icraatda olmuş **2.957** nəfər haqqında **2.601** işdən **291 (9,8%)** nəfər haqqında **206 (7,9%)** iş kassasiya protesti, **2 (0,1%)** nəfər haqqında **2 (0,1%)** iş təqdimat, qalan **2.664 (90,1%)** nəfər haqqında **2.393 (92%)** iş isə kassasiya şikayəti ilə icraatda olmuş işlər kimi qeydə alınmışdır.

Son iki ildə icraatda olmuş kassasiya müraciətlərinin müqayisəsi göstərir ki, 2020-ci ildə şəxslərə və işlərə görə müvafiq olaraq **46 (15,8%)** nəfər barəsində **40 (19,4%)** iş - kassasiya protestləri üzrə**, 1 (50%)** nəfər barəsində **1 (50%)** iş - təqdimatlar üzrə və **698 (26,2%)** nəfər barəsində **639 (26,7%)** iş **-** kasasiya şikayətləri üzrə azalma olmuşdur.

### İcraatda olmuş kassasiya müraciətlərinə dair 2019-cu və 2020-ci illər üzrə məlumatlar






## İllər üzrə fərq






Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **1.410** nəfər haqqında **1.205** işdən **170 (12%)** nəfər haqqında **110 (9,1%)** iş - kassasiya protesti, **1 (0,1%)** nəfər haqqında **1 (0,1%)** iş - təqdimat, qalan **1.239 (87,9%)** nəfər haqqında **1.094 (90,8%)** iş isə kassasiya şikayəti ilə əlaqədar baxılmış işlər kimi qeydə alınmışdır.

Müqayisə edilən 2019-cu ilin müvafiq dövründə baxılmış **2.295** nəfər haqqında **2.045** işdən **191 (8,3%)** nəfər haqqında **146 (7,1%)** iş - kassasiya protesti, **2 (0,1%)** nəfər haqqında **2 (0,1%)** iş - təqdimat, qalan **2.102 (91,6%)** nəfər haqqında **1.897 (92,8%)** iş isə kassasiya şikayəti ilə əlaqədar baxılmış işlər kimi qeydə alınmışdır.

Bu illərin müqayisəsindən görünür ki, 2020-ci ildə baxılmış işlərin sayında şəxslərə və işlərə görə müvafiq olaraq **21 (11%)** nəfər barəsində **36 (24,6%)** iş – kassasiya protestləri üzrə**, 1 (50%)** nəfər haqqında **1 (50%)** iş - təqdimatlar üzrə və **863 (41%)** nəfər barəsində **803 (42,3%)** iş - kassasiya şikayətləri üzrə azalma olmuşdur.

**Baxılmış kassasiya müraciətlərinə dair 2019-cu və 2020-ci illər üzrə məlumatlar**






## İllər üzrə fərq






Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **1.239** nəfər barəsində **1.094** kassasiya şikayətindən:

**- 771 (62,2%)** nəfər barəsində **682 (62,3%)** kassasiya şikayəti təmin edilməyərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**- 78 (6,3%)** nəfər barəsində **74 (6,8%)** kassasiya şikayəti tam və ya qismən təmin **e**dilərək qərarlar (hökmlər) ləğv edilmiş və onlardan:

**a) 66 (5,3%)** nəfər barəsində **63 (5,8%)** kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) ləğv edilməklə işlər yeni apelyasiya baxışına qaytarılmış,

**b) 12 (1%)** nəfər barəsində **11 (1%)** kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) ləğv edilməklə işlər üzrə icraata xitam verilmiş;

**- 133 (10,7%)** nəfər barəsində **95 (8,7%)** kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmiş;

**- 2 (0,2%)** nəfər barəsində **2 (0,2%)** kassasiya şikayətinin baxılmasına xitam verilmiş;

**- 200 (16,2%)** nəfər haqqında **186 (17%)** iş (material) üzrə olan kassasiya şikayətləri, məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmış;

**- 55 (4,4%)** nəfər barəsində **55 (5%)** iş üzrə kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddət bərpa edilməmişdır.

Təsvir edilən məlumatlardan göründüyü kimi 2020-ci ildə baxılmış **1.239** nəfər barəsində **1.094** kassasiya şikayətindən **771 (62,2%)** nəfər barəsində **682 (62,3%)** kassasiya şikayəti təmin edilməmiş, **211 (17,0%)** nəfər barəsində **169 (15,5%)** kassasiya şikayəti tam və yaxud qismən təmin edilmişdir.

Müqayisə edilən 2019-cu ildə baxılmış **2102** nəfər barəsində **1897** kassasiya şikayətindən tam və ya qismən təmin edilmiş kassasiya şikayətlərinin sayı **258** (**12,4%**) nəfər barəsində **247** (**13,1%**) kassasiya şikayəti, təmin edilməmiş şikayətlərin sayı isə **1102** (**52,5%**) nəfər barəsində **956** (**50,4%**) kassasiya şikayəti olmuşdur.

Hesabat ilində və 2019-cu ildə tam və ya qismən təmin edilmiş kassasiya şikayətlərinin sayının hər bir ildə baxılmış kassasiya şikayətlərinin ümumi sayına nisbətini əsas götürməklə müqayisə apardıqda, görünür ki, 2020-ci ildə kassasiya şikayətlərinin tam və ya qismən təmin edilməsi göstəricisi üzrə şəxslərə görə **4,6 %**, şikayətlərə görə **2,4 %** artım olmuşdur.

**Baxılmış kassasiya şikayətlərinə dair 2019-cu və 2020-ci illər üzrə məlumatlar**






Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **170** nəfər haqqında **110** kassasiya protestindən:

**- 107 (62,9%)** nəfər barəsində **76 (69,1%)** kassasiya protesti təmin edilmədən, apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**- 42 (24,7%)** nəfər barəsində **24 (21,8%)** kassasiya protesti təmin edilərək apellyasiya instansiyası məhkəmələrininin qərarları (hökmləri) ləğv edilməklə işlər yenidən baxılması üçün həmin məhkəmələrə qaytarılmış;

**- 10 (5,9%)** nəfər barəsində **7 (6,4%)** kassasiya protesti təmin edilərək apellyasiya instansiyası məhkəmələrininin qərarları (hökmləri) dəyişdirilmiş;

**- 10 (5,9%)** nəfər haqqında **2 (1,8%)** iş (material) üzrə olan kassasiya protesti dövlət ittihamcılarının müraciətlərinə əsasən geri qaytarılmış;

**- 1 (0,6%)** nəfər barəsində **1 (0,9%)** iş üzrə kassasiya protestinin verilməsi üçün buraxılmış prosessual müddət bərpa edilmişdır.

Təsvir edilən məlumatlardan göründüyü kimi 2020-ci ildə baxılmış **170** nəfər barəsində **110** kassasiya protestindən **107 (62,9%)** nəfər barəsində **76 (69,1%)** kassasiya protesti təmin edilməmiş, **52 (30,6%)** nəfər barəsində **31 (28,2%)** kassasiya şikayəti tam və yaxud qismən təmin edilmişdir.

Müqayisə edilən 2019-cu ildə baxılmış **191 nəfər barəsində 146** kassasiya protestindən **106** nəfər (**55,5%**) barəsində **81** (**55,5%**) kassasiya protesti təmin edilmədən saxlanılmış, **85** nəfər (**44,5%**) barəsində **65** (**44,5%**) kassasiya protesti isə tam və ya qismən təmin edilmişdir**.**

Hesabat ilində və 2019-cu ildə tam və ya qismən təmin edilmiş kassasiya protestlərinin sayının hər bir ildə baxılmış kassasiya protestlərinin ümumi sayına nisbətini əsas götürməklə müqayisə apardıqda, görünür ki, 2020-ci ildə baxılmış kassasiya protestlərinin tam və ya qismən təmin edilməsi göstəricisi üzrə şəxslərə görə **13,9%**, protestlərə görə isə **16,3%** azalma olmuşdur.

**Baxılmış kassasiya protestlərinə dair 2019-cu və 2020-ci illər üzrə məlumatlar**






Cinayət kollegiyasında 2020-cu ildə baxılmış **1** nəfər **(100%)** barəsində **1 (100%)** təqdimat təmin edilərək, apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilməklə iş yeni apelyasiya baxışına qaytarılmışdır.

Cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları; hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri; hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları ayrı-ayrılıqda götürüldükdə baxılmış kassasiya müraciətləri üzrə vəziyyət aşağıda təsvir edildiyi kimi olmuşdur.

**Cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə verilmiş kassasiya müraciətləri haqqında məlumat**

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **1.161** nəfər haqqında **992** işdən **149 (12,8%)** nəfər haqqında **97 (9,8%)** iş - kasasiya protesti, **1 (0,05%)** nəfər haqqında **1 (0,1%)** iş - təqdimat, **1.011 (87,1%)** nəfər haqqında **894 (90,1%)** iş isə kasasiya şikayəti ilə əlaqədar baxılmış işlər kimi qeydə alınmışdır.

Müqayisə edilən 2019-cu ilin müvafiq hesabat dövründə isə baxılan **1.844** nəfər haqqında **1.594** işdən **185 (10%)** nəfər haqqında **140 (14,8%)** iş - kasasiya protesti, **2 (0,1%)** nəfər haqqında **2 (0,1%)** iş - təqdimat, qalan **1.657 (89,9%)** nəfər haqqında **1.417 (85,1%)** iş isə kasasiya şikayəti ilə əlaqədar baxılmış işlər kimi qeydə alınmışdır.

Bu illərin müqayisəsindən görünür ki, 2020-ci ildə baxılmış işlərin sayında şəxslərə və işlərə görə müvafiq olaraq **36 (19,5%)** nəfər barəsində **43 (30,7%)** iş – kassasiya protestləri üzrə**, 1 (50%)** nəfər haqqında **1 (50%)** iş - təqdimatlar üzrə və **646 (39%)** nəfər barəsində **523 (36,9%)** iş - kassasiya şikayətləri üzrə azalma olmuşdur.

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **1.011** nəfər barəsində **894** kassasiya şikayətindən:

**- 656 (64,9%)** nəfər barəsində **583 (65,2%)** kassasiya şikayəti təmin edilməyərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**- 71 (7%)** nəfər barəsində **67 (7,5%)** kassasiya şikayəti tam və ya qismən təmin **e**dilərək apellyasiya instansiyası məhkəməsinin qərarları (hökmləri) ləğv edilmiş, o cümlədən:

**a) 61 (6%)** nəfər barəsində **65 (7,3%)** kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) ləğv edilməklə işlər yeni apelyasiya baxışına qaytarılmış;

**b) 10 (1%)** nəfər barəsində **2 (0,2%)** kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) ləğv edilməklə işlər üzrə icraata xitam verilmiş;

**- 102 (10,1%)** nəfər barəsində **73 (8,2%)** kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmiş;

**- 2 (0,2%)** nəfər barəsində **2 (0,2%)** kassasiya şikayətinin baxılmasına xitam verilmiş;

**- 162 (16%)** nəfər haqqında **151 (16,9%)** iş (material) üzrə olan kassasiya şikayətləri, məhkumların və onların müdafiəçilərinin əsasən geri qaytarılmış;

**- 18 (1,8%)** nəfər barəsində **18 (2%)** iş üzrə kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddət bərpa edilməmişdır.

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **149** nəfər haqqında **97** kassasiya protestindən:

**- 101 (67,8%)** nəfər barəsində **70 (72,2%)** kassasiya protesti təmin edilmədən, apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**- 35 (23,5%)** nəfər barəsində **22 (22,6%)** kassasiya protesti təmin edilərək apellyasiya instansiyası məhkəmələrininin qərarları (hökmləri) ləğv edilməklə işlər yenidən baxılması üçün həmin məhkəmələrə qaytarılmış;

**- 2 (1,3%)** nəfər barəsində **2 (2,1%)** kassasiya protesti təmin edilərək apellyasiya instansiyası məhkəmələrininin qərarları (hökmləri) dəyişdirilmiş;

**- 10 (6,7%)** nəfər haqqında **2 (2,1%)** iş üzrə kassasiya protesti dövlət ittihamcılarının ərizələrinə əsasən geri qaytarılmış;

**- 1 (0,7%)** nəfər barəsində **1 (1%)** iş üzrə kassasiya protestinin verilməsi üçün buraxılmış müddət bərpa edilmişdır.

Cinayət kollegiyasına 2020-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qərarından verilmiş **1** nəfər **(100%)** barəsində **1 (100%)** təqdimat təmin edilərək, apellyasiya instansiyası məhkəmələrinin qərarı ləğv edilməklə iş yeni apelyasiya baxışına qaytarılmışdır.

**Hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri üzrə verilmiş kassasiya müraciətləri haqqında məlumat**

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **100** nəfər haqqında **64** işdən **16 (16%)** nəfər haqqında **6 (9,4%)** iş - kasasiya protesti, **84 (84%)** nəfər haqqında **58 (90,6%)** iş isə kasasiya şikayəti ilə əlaqədar baxılmış işlər kimi qeydə alınmışdır.

Müqayisə edilən 2019-cu ilin müvafiq dövründə baxılmış **140** nəfər haqqında **91** işdən **21 (15%)** nəfər haqqında **11 (11,8%)** iş - kassasiya protesti, **119 (85%)** nəfər haqqında **80 (88,2%)** iş isə kassasiya şikayəti ilə əlaqədar baxılmış işlər kimi qeydə alınmışdı.

Bu illərin müqayisəsi göstərir ki, 2020-ci ildə baxılmış işlərin sayında şəxslərə və işlərə görə müvafiq olaraq **5 (23,8%)** nəfər barəsində **5 (45,4%)** iş **-** kassasiya protesti üzrə, **35 (29,4%)** nəfər barəsində **22 (27,5%)** iş - kassasiya şikayəti üzrə azalma olmuşdur.

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **84** nəfər barəsində **58** kassasiya şikayətindən:

**- 45 (53,6%)** nəfər barəsində **29 (50%)** kassasiya şikayəti təmin edilməyərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**- 4** nəfər **(4,8%)** haqqında **4 (6,8%)** kassasiya şikayəti tam və yaxud qismən təmin edilməklə qərarlar (hökmlər) ləğv olunmuş, o cümədən:

**a) 2** nəfər **(2,4%)** haqqında **2 (3,4%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, işlər yeni apellyasiya baxışına göndərilmiş;

**b) 2 (2,4%)** nəfər haqqında **2 (3,4%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, cinayət işləri üzrə icraata xitam verilmiş;

**- 22 (26,2%)** nəfər barəsində **15 (25,9%)** kassasiya şikayəti qismən təmin edilərək apellyasiya instansiyası məhkəməsinin qərarları (hökmləri) dəyişdirilmiş;

**- 13 (15,4%)** nəfər barəsində **10 (17,3%)** kassasiya şikayəti geri qaytarılmış və baxılmamış saxlanılmışdır.

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **16** nəfər barəsində **6** kassasiya protestindən:

**- 1 (6,3%)** nəfər barəsində **1 (16,7%)** kassasiya protesti təmin edilməyərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**- 7 (43,7%)** nəfər barəsində **2 (33,3%)** kassasiya protesti təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) ləğv edilməklə işlər yeni apelyasiya baxışına qaytarılmış;

- **8 (50%)** nəfər barəsində **3 (50%)** kassasiya protesti qismən təmin edilərək apellyasiya instansiyası məhkəməsinin qərarları (hökmləri) dəyişdirilmişdir.

### Hökmün (məhkəmənin digər yekun qərarının) icrası qaydasında icraat materialı üzrə verilmiş kassasiya müraciətləri haqqında məlumat

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış **149** nəfər haqqında **149** hökmün icrası ilə bağlı materialdan **5 (3,3%)** nəfər haqqında **5 (3,3%)** material - kassasiya protesti, **144 (96,7%)** nəfər haqqında **144 (96,7%)** material isə kassasiya şikayəti ilə əlaqədar baxılmış material kimi qeyd edilmişdir.

Müqayisə edilən 2019-cu ildə baxılmış **443** nəfər haqqında **443** materialdan **6 (1,3%)** nəfər haqqında **6 (1,3%)** materiala kassasiya protestlərinə əsasən, **437 (98,7%)** nəfər haqqında **437 (98,7%)** materiala isə kassasiya şikayətlərinə əsasən baxılmışdır.

Bu illərin müqayisəsindən görünür ki, 2020-ci ildə baxılmış kassasiya protestlərinin sayında – **1 (16,7%)** nəfər haqqında **1 (16,7%)** protest, baxılmış kassasiya şikayətlərinin sayında isə **293 (67,0%)** nəfər haqqında **293 (67,0%)** şikayət azalma müşahidə olunmuşdur.

Cinayət kollegiyasında 2020-ci ildə baxılmış hökmün icrası ilə bağlı materiallar üzrə **144** nəfər barəsində **144** kassasiya şikayətindən:

**- 70 (48,6%)** nəfər barəsində **70 (48,6%)** material üzrə kassasiya şikayəti təmin edilməyərək apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmışdır.

**- 3 (2%)** nəfər barəsində **3 (2%)** material üzrə kassasiya şikayəti tam və ya qismən təmin edilərək apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) ləğv edilməklə işlər yeni apelyasiya baxışına qaytarılmış;

**- 9 (6,3%)** nəfər barəsində **9 (6,3%)** material üzrə kassasiya şikayəti qismən təmin edilərək apellyasiya instansiyası məhkəməsinin qərarları dəyişdirilmiş;

**- 25 (17,4%)** nəfər haqqında **25 (17,4%)** material üzrə kassasiya şikayətləri geri götürülmiş və ya baxılmamış saxlanılmış;

**- 37 (25,7%)** nəfər barəsində **37 (25,7%)** material üzrə kassasiya şikayətinin verilməsi üçün buraxılmış müddət bərpa edilməmişdır.

Cinayət kollegiyasında 2020-ci ildə hökmn icrası qaydasında icraat materialı üzrə baxılmış **5 (100%)** nəfər haqqında **5 (100%)** kassasiya protesti təmin edilməmiş, apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmışdır.

## *V hissə. Apellyasiya instansiyası məhkəmələri üzrə kassasiya icraatının nəticələri haqqında məlumat*

Hesabat ilində Ali Məhkəmənin Cinayət kollegiyasında baxılmış bütün kateqoriyadan olan cinayət işləri və materiallar haqqında məlumatlara görə ümumən baxılmış **1410** nəfər barəsində işlərin (materialların) daha böyük hissəsini Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlər təşkil edir.

Belə ki, 2020-ci ildə Ali Məhkəmənin Cinayət kollegiyasında baxılmış işlərdən **715 (50,7%)** nəfər barəsində iş Bakı Apellyasiya Məhkəməsindən, **7 (0,5%)** nəfər barəsində iş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən, **133 (9,4%)** nəfər barəsində iş Sumqayıt Apellyasiya Məhkəməsindən, **211 (15,0%)** nəfər barəsində iş Gəncə Apellyasiya Məhkəməsindən, **232 (16,4%)** nəfər barəsində iş Şirvan Apellyasiya Məhkəməsindən, **112 (7,9%)** nəfər barəsində iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş işlərdir.




Hesabat ilində Ali Məhkəmənin Cinayət kollegiyasında baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları; hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri; hökmün icrası qaydasında icraat üzrə materiallar ayrı-ayrılıqda götürüldükdə, hər bir apellyasiya instansiyası məhkəməsinə aid məlumatlar aşağıdakı kimi olmuşdur

## Bakı Apellyasiya Məhkəməsi

## I. Ümumi məlumat

Bakı Apellyasiya Məhkəməsindən hesabat ilində daxil olmuş bütün kateqoriyadan olan işlər və materiallar üzrə çıxarılmış **715** nəfər barəsində qərarlardan **444 (62,1%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış; **53 (7,4%)** nəfər barəsində qərarlar ləğv olunaraq onlardan **49 (6,8%)** nəfər barəsində işlər yeni apellyasiya baxışına qaytarılmış, **4 (0,5%)** nəfər barəsində iş üzrə icraata xitam verilmiş; **59 (8,2%)** nəfər barəsində qərarlar dəyişdirilmiş; **2 (0,4%)** nəfər barəsində kassasiya icraatına xitam verilmiş; **113 (15,8%)** nəfər barəsində iş üzrə kassasiya müraciətləri geri qaytarılmış; **44 (6,1%)** nəfər barəsində iş üzrə prosessual müddətin bərpasına dair vəsatətlər təmin edilməmişdir.

Ləğv edilmiş və dəyişdirilmiş qərarların (nəfərlə götürməklə) ümumi sayını **(112)** Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının qərarlarından verilmiş kassasiya müraciətləri üzrə kassasiya qaydasında baxılmış işlərin (nəfərlə götürülməklə) ümumi sayı **(715)** ilə müqayisə etdikdə, həmin məhkəmə üzrə kassasiya qaydasında baxılmış işlərin **15,7 %**-nin ləğv edildiyi və yaxud dəyişdirildiyi müəyyən edilir.

Müqayisə aparılan 2019-cu ildə Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlər üzrə çıxarılmış **1406** nəfər barəsində qərarlardan **654** (46,6%) nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış, **104 (7,3%)** nəfər barəsində qərarlar ləğv olunaraq onlardan **94 (6,7%)** nəfər barəsində işlər yeni apellyasiya baxışına qaytarılmış, **10 (1,1%)** nəfər barəsində iş üzrə icraata xitam verilmiş, **112 (7,9%)** nəfər barəsində qərarlar dəyişdirilmişdir.

Həmin 2019-cu ildə ləğv edilən və dəyişdirilən qərarların ümumi sayı kassasiya qaydasında baxılmış işlərin ümumi sayına nisbətdə onların **15,2 %**-ni təşkil etmişdi.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Bakı Apellyasiya Məhkəməsinə aid işlər üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **691** nəfər barəsində qərar az olmaqla **49,1 %** azalma, dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **210** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **15,5%** artım, ləğv edilmiş qərarların sayında **51** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **0,1%** artım, dəyişdirilmiş qərarların sayında **53** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **8,3%** artım müşahidə edilmişdir.

**Baxılmış işlər haqqında ümumi məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**




**İllər üzrə fərq**




Kassasiya qaydasında baxılmış Bakı Apellyasiya Məhkəməsinə aid işlər üzrə çıxarılmış qərarları cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları; hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri; hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə çıxarılmış qərarlara ayırdıqda, müvafiq məlumatlar, o cümlədən 2020-ci ilin göstərciləri ilə 2019-cu ilin göstəriclərinin müqayisəsi üzrə məlumatlar aşağıda təsvir edildiyi kimi olmuşdur.

## II . Hesabat ilində cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş cinayət işlərindən, məhkəməyədək sadələşdirilmiş icraat materiallarından və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarından (bundan sonra hazırki bölmədə "iş" kimi ümumi adla qeyd olunacaqdır) **561** nəfər barəsində işə baxılmışdır.

Baxılmış işlərdən **364 (64,9%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış; **51 (9,1%)** nəfər barəsində qərarlar ləğv olunaraq onlardan **47 (8,4%)** nəfər barəsində işlər yeni apellyasiya baxışına qaytarılmış, **4 (0,7%)** nəfər barəsində iş üzrə icraata xitam verilmiş; **46 (8,2%)** nəfər barəsində qərarlar dəyişdirilmiş; **2 (0,4%)** nəfər barəsində kassasiya icraatına xitam verilmiş; **86 (15,3%)** nəfər barəsində iş üzrə kassasiya müraciətləri geri qaytarılmış; **12 (2,1%)** nəfər barəsində iş üzrə prosessual müddətin bərpasına dair vəsatətlər təmin edilməmişdir.

Müqayisə aparılan 2019-cu ildə Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə çıxarılmış **993** nəfər barəsində qərarlardan **542** (54,6%) nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış, **97 (9,8%)** nəfər barəsində qərarlar ləğv olunaraq onlardan **88 (8,9%)** nəfər barəsində işlər yeni apellyasiya baxışına qaytarılmış, **9 (0,9%)** nəfər barəsində iş üzrə icraata xitam verilmiş, **98 (9,9%)** nəfər barəsində qərarlar dəyişdirilmişdir.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Bakı Apellyasiya Məhkəməsinə aid cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **432** nəfər barəsində qərar az olmaqla **43,5 %** azalma; dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **178** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **10,3%** artım; ləğv edilmiş qərarların sayında **46** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **0,7%** azalma; dəyişdirilmiş qərarların sayında **52** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **1,7%** azalma müşahidə edilmişdir.

**Baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**




**İllər üzrə fərq**



## III. Hesabat ilində hərbi məhkəmələrin yurisdiksiyasına aid işlərə baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri üzrə (bundan sonra hazırki bölmədə "iş" kimi ümumi adla qeyd olunacaqdır) **19** nəfər barəsində işə baxılmışdır.

Baxılmış işlərdən **11 (57,9%)** nəfər barəsində iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış, **1 (5,3%)** nəfər barəsində iş üzrə qərarlar ləğv edilmiş, o cümlədən qərar ləğv edilməklə **1 (5,3%)** nəfər barəsində iş apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmiş, **4 (21,1%)** nəfər barəsində iş üzrə qərarlar dəyişdirilmiş, **3 (15,8%)** nəfər barəsində iş üzrə kassasiya müraciəti geri qaytarılmış, prosessual müddətin bərpasına dair vəsatətlər olmamışdır.

Müqayisə aparılan 2019-cu ildə Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlər üzrə çıxarılmış **28** nəfər barəsində qərarlardan (hökmlərdən) **16 (57,1%)** nəfər barəsində qərarlar (hökmlər) dəyişdirilmədən saxlanılmış; **2 (7,1%)** nəfər barəsində qərar dəyişdirilmiş; **10 (35,7%)** nəfər barəsində kassasiya şikayəti və kassasiya protesti məhkumların və onların müdafiəçilərinin, dövlət ittihamçılarının ərizələrinə əsasən geri qaytarılmış; ləğv edilmiş qərarlar, prosessual müddətin bərpasına dair vəsatətlər olmamışdır.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Bakı Apellyasiya Məhkəməsinə aid işlər üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **9** nəfər barəsində iş üzrə qərar az olmaqla **32,1%** azalma; dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **5** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **0,8%** artım; ləğv edilmiş qərarların sayında **1** nəfər barəsində qərar çox olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **5,3%** artım; dəyişdirilmiş qərarların sayında **2** nəfər barəsində qərar çox olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **14,0%** artım müşahidə edilmişdir.

**Baxılmış hərbi məhkəmələrin yurisdiksiyasına aid işlər üzrə məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**




**İllər üzrə fərq**



## IV. Hesabat ilində hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallarına baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə (bundan sonra hazırki bölmədə "material" kimi ümumi adla qeyd olunacaqdır) **135** nəfər barəsində materiala baxılmışdır.

Baxılmış materiallardan **69 (51,1%)** nəfər barəsində iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış; **1 (0,7%)** nəfər barəsində material üzrə qərar ləğv edilmiş, o cümlədən **1 (0,7%)** nəfər barəsində material üzrə qərar ləğv edilməklə material apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına qaytarılmış; **9 (6,7%)** nəfər barəsində material üzrə qərarlar dəyişdirilmiş; **32 (23,7%)** nəfər barəsində material üzrə prosessual müddətin bərpasına dair vəsatətlər təmin edilməmiş, 24 **(17,8%)** nəfər barəsində iş üzrə kassasiya müraciəti geri qaytarılmışdır.

Müqayisə aparılan 2019-cu ildə Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə çıxarılmış **413** nəfər barəsində qərarlardan **112 (27,1%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış, **7 (1,7%)** nəfər barəsində qərarlar ləğv olunaraq onlardan **6 (1,5%)** nəfər barəsində materiallar yeni apellyasiya baxışına qaytarılmış, **1 (0,2%)** nəfər barəsində material üzrə icraata xitam verilmiş, **14 (3,4%)** nəfər barəsində qərarlar dəyişdirilmişdir.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Bakı Apellyasiya Məhkəməsinə aid hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **278** nəfər barəsində qərar az olmaqla **67,3%** azalma, dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **43** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış materiallara nisbəti əsas götürüldükdə) **24%** artım, ləğv edilmiş qərarların sayında 6 nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış materiallara nisbəti əsas götürüldükdə) **1,0%** azalma, dəyişdirilmiş qərarların sayında **5** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış materiallara nisbəti əsas götürüldükdə) **3,3%** artım müşahidə edilmişdir.

## Baxılmış hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallarına dair məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi




## İllər üzrə fərq



**Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi**

**I. Ümumi məlumat**

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən hesabat ilində daxil olmuş bütün kateqoriyadan olan işlər və materiallar üzrə çıxarılmış **7** nəfər barəsində qərarlardan **5 (71,4%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış; **1 (14,3%)** nəfər barəsində qərarlar dəyişdirilmiş; **1 (14,3%)** nəfər barəsində iş üzrə kassasiya müraciəti geri qaytarılmış; ləğv olunmuş qərarlar və prosessual müddətin bərpasına dair vəsatətlər olmamışdır.

Dəyişdirilmiş qərarların (nəfərlə götürməklə) ümumi sayını **(1)** Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin Cinayət kollegiyasının qərarlarından verilmiş kassasiya müraciətləri üzrə kassasiya qaydasında baxılmış işlərin (nəfərlə götürülməklə) ümumi sayı **(7)** ilə müqayisə etdikdə, həmin məhkəmə üzrə kassasiya qaydasında baxılmış işlərin **14,3 %**-nin dəyişdirildiyi müəyyən edilir.

Müqayisə aprılan 2019-cu ildə Naxçıvan Ali Məhkəməsindən daxil olmuş işlər üzrə çıxarılmış **6** nəfər barəsində qərarlardan **3 (50%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış, ləğv olunmuş və dəyişdirilmiş qərarlar olmamışdır.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Naxçıvan MR Ali Məhkəməsinə aid işlər üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **1** nəfər barəsində qərar çox olmaqla **16,7 %** artım, dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **2** nəfər barəsində qərar çox olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **21,4%** artım, dəyişdirilmiş qərarların sayında **1** nəfər barəsində qərar çox olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **14,3%** artım müşahidə edilmiş, ləğv edilmiş qərarlar olmadığı üçün bu hal üzrə müqayisə edilən illər arasında fərq olmamışdır.

**Baxılmış işlər haqqında ümumi məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**



**İllər üzrə fərq**




Kassasiya qaydasında baxılmış Naxçıvan MR Ali Məhkəməsinə aid işlər üzrə çıxarılmış qərarları cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları; hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri; hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə çıxarılmış qərarlara ayırdıqda, müvafiq məlumatlar, o cümlədən 2020-ci ilin göstərciləri ilə 2019-cu ilin göstəriclərinin müqayisəsi üzrə məlumatlar aşağıda təsvir edildiyi kimi olmuşdur.

## II . Hesabat ilində cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş cinayət işlərindən, məhkəməyədək sadələşdirilmiş icraat materiallarından və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarından (bundan sonra hazırki bölmədə "iş" kimi ümumi adla qeyd olunacaqdır) **5** nəfər barəsində işə baxılmışdır.

Baxılmış işlərdən **4 (80%)** nəfər barəsində iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış, **1 (20%)** nəfər barəsində iş üzrə kassasiya müraciətləri geri qaytarılmış, ləğv edilmiş, dəyişdirilmiş qərarlar, eləcə də prosessual müddətin bərpasına dair vəsatətlər olmamışdır.

Müqayisə aparılan 2019-cu ildə Naxçıvan Ali Məhkəməsindən daxil olmuş cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə çıxarılmış **6** nəfər barəsində qərarlardan **3 (50%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış, **1 (16,7%)** nəfər barəsində qərar üzrə verilmiş kassasiya şikayəti vermə müddətinin bərpası haqqında vəsatət təmin edilməmiş, **2** nəfər **(33,3 %)** barəsində qərarlar üzrə verilmiş kassasiya şikayətləri məhkumların ərizələrinə əsasən geri qaytarılmış, ləğv edilən və yaxud dəyişdirilən qərarlar olmamışdır.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Naxçıvan MR Ali Məhkəməsinə aid cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **1** nəfər barəsində qərar az olmaqla **16,7 %** azalma; dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **1** nəfər barəsində qərar çox olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **30%** artım, ləğv edilmiş və dəyişdirilmiş qərarlar olmadığı üçün bu hallar üzrə müqayisə edilən illər arasında fərq olmamışdır.

**Baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlərə dair icraat materialları üzrə məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**




## İllər üzrə fərq



## III. Hesabat ilində hərbi məhkəmələrin yurisdiksiyasına aid işlərə baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri üzrə (bundan sonra hazırki bölmədə "iş" kimi ümumi adla qeyd olunacaqdır) **2** nəfər barəsində işə baxılmışdır.

Baxılmış işlərdən **1 (50%)** nəfər barəsində iş üzrə qərar dəyişdirilmədən saxlanılmış, **1 (50%)** nəfər barəsində iş üzrə qərar dəyişdirilmiş, ləğv edilmiş qərarlar, prosessual müddətin bərpasına dair vəsatətlər, kassasiya müraciətlərinin geri qaytarılması halları olmamışdır.

Müqayisə aparılan 2019-cu ildə Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş işlər üzrə çıxarılmış **6** nəfər barəsində qərarlardan (hökmlərdən) **4 (66,7%)** nəfər barəsində qərarlar (hökmlər) dəyişdirilmədən saxlanılmış; **2 (33,3%)** nəfər barəsində iş üzrə prosessual müddətin bərpasına dair vəsatətlər təmin edilməmiş; ləğv edilmiş, dəyişdirilmiş qərarlar, eləcə də kassasiya müraciətlərinin geri qaytarılması halları olmamışdır.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Naxçıvan MR Ali Məhkəməsinə aid işlər üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **4** nəfər barəsində iş üzrə qərar az olmaqla **66,7 %** azalma; dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **3** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **16,7%** azalma; dəyişdirilmiş qərarların sayında **1** nəfər barəsində qərar çox olmaqla (hər bir il üzrə baxılmış işlərə nisbəti əsas götürüldükdə) **50%** artım müşahidə edilmiş, ləğv edilmiş qərarlar olmadığı üçün bu hal üzrə müqayisə edilən illər arasında fərq olmamışdır.

## Baxılmış hərbi məhkəmələrin yurisdiksiyasına aid işlər üzrə məlumatlar və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi




## İllər üzrə fərq



## IV. Hesabat ilində hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallarına baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Naxçıvan MR Ali Məhkəməsinə münasibətdə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallarına kassasiya qaydasında baxılmamışdır.

Müqayisə aparılan 2019-cu ildə də Naxçıvan MR Ali Məhkəməsinə münasibətdə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materiallara kassasiya qaydasında baxılmamışdır.

## Sumqayıt Apellyasiya Məhkəməsi

### I. Ümumi məlumat

Sumqayıt Apellyasiya Məhkəməsindən hesabat ilində daxil olmuş bütün kateqoriyadan olan işlər və materiallar üzrə çıxarılmış **133** nəfər barəsində qərarlardan **93 (69,9%)** nəfər barəsində qərarlar dəyişdirilmədən saxlanılmış; **19 (14,2%)** nəfər barəsində qərarlar ləğv olunaraq onlardan **17 (12,8%)** nəfər barəsində işlər yeni apellyasiya baxışına qaytarılmış, **2 (1,5%)** nəfər barəsində iş üzrə icraata xitam verilmiş; **5 (3,8%)** nəfər barəsində qərarlar dəyişdirilmiş; **14 (10,5%)** nəfər barəsində iş üzrə kassasiya müraciətləri geri qaytarılmış və baxışdan çıxarılmış; **2 (1,5%)** nəfər barəsində iş üzrə prosessual müddətin bərpasına dair vəsatətlər təmin edilməmişdir.

Ləğv edilmiş və dəyişdirilmiş qərarların (nəfərlə götürməklə) ümumi sayını **(24)** Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının qərarlarından verilmiş kassasiya müraciətləri üzrə kassasiya qaydasında baxılmış işlərin (nəfərlə götürülməklə) ümumi sayı **(133)** ilə müqayisə etdikdə, həmin məhkəmə üzrə kassasiya qaydasında baxılmış işlərin **18,0 %**-nin ləğv edildiyi və yaxud dəyişdirildiyi müəyyən edilir.

Müqayisə aprılan 2019-cu ildə Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş işlər üzrə çıxarılmış **215** nəfər barəsində qərarlardan **140** nəfər **(65,2%)** barəsində qərarlar dəyişdirilmədən saxlanılmış, **29** nəfər barəsində **(13,5%)** qərarlar ləğv olunaraq işlər yeni apellyasiya baxışına qaytarılmış, **7** nəfər **(3,3%)** barəsində qərarlar dəyişdirilmişdir.

Həmin 2019-cu ildə ləğv edilən və dəyişdirilən qərarların ümumi sayı kassasiya qaydasında baxılmış işlərin ümumi sayına nisbətdə onların **16,7 %**-ni təşkil etmişdi.

Təsvir edilən məsələlər üzrə hesabat ili ilə 2019-cu ilin məlumatlarını müqayisə etdikdə görünür ki, Sumqayıt Apellyasiya Məhkəməsinə aid işlər üzrə kassasiya qaydasında çıxarılmış qərarların sayında **82** nəfər barəsində qərar az olmaqla **38,1 %** azalma, dəyişdirilmədən qüvvəsində saxlanılmış qərarların sayında **47** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **4,7%** artım, ləğv edilmiş qərarların sayında **10** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **0,7%** artım, dəyişdirilmiş qərarların sayında **2** nəfər barəsində qərar az olmaqla (hər bir il üzrə çıxarılmış qərarların ümumi sayına nisbəti əsas götürüldükdə) **0,5%** artım müşahidə edilmişdir.

**Baxılmış işlər haqqında ümumi məlumat və onların 2019-cu il üzrə məlumatlarla müqayisəsi**




**İllər üzrə fərq**




Kassasiya qaydasında baxılmış Sumqayıt Apellyasiya Məhkəməsinə aid işlər üzrə çıxarılmış qərarları cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları; hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri; hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları üzrə çıxarılmış qərarlara ayırdıqda, müvafiq məlumatlar, o cümlədən 2020-ci ilin göstərciləri ilə 2019-cu ilin göstəriclərinin müqayisəsi üzrə məlumatlar aşağıda təsvir edildiyi kimi olmuşdur.

## II . Hesabat ilində cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına baxılmasına dair məlumatlar və onların 2019-cu ilin müvafiq məlumatları ilə müqayisəsi.

Hesabat ilində Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş cinayət işlərindən, məhkəməyədək sadələşdirilmiş icraat materiallarından və xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarından (bundan sonra hazırki bölmədə "iş" kimi ümumi adla qeyd olunacaqdır) **126** nəfər barəsində işə baxılmışdır.

Baxılmış işlərdən **91 (72,2%)** nəfər barəsində iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış; **14 (11,1%)** nəfər barəsində iş üzrə qərarlar ləğv edilmiş, o cümlədən qərar ləğv edilməklə **12 (9,5%)** nəfər barəsində iş apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmiş və qərar ləğv edilməklə **2 (1,6%)** nəfər barəsində iş üzrə icraata xitam verilmiş; **5 (4%)** nəfər barəsində iş üzrə qərarlar dəyişdirilmiş; **14 (11,1%)** nəfər barəsində iş üzrə kassasiya müraciətləri geri qaytarılmış və ya baxışdan çıxarılmış; **2 (1,6%)** nəfər barəsində iş üzrə prosessual müddətin bərpasına dair vəsatətlər təmin edilməmişdir.

